# SÖZÜN BAHAR GÜLLƏRİ

### *QANUNUN GÜCÜ, LƏYAQƏTİN HÖKMÜ*

Şəfəq Məmmədovanın "Haqq-ədalət keşiyində" ədəbi-tənqidi məqaləsi yazıçı Tofiq Əfəndiyevin "Prokuror"("Gənclik", Bakı, 1976) romanına ilkin tənqidçi baxışıdır. Məqalə "Azərbaycan" jurnalında (№11, 1978) dərc olunub.

Bu məqalə Şəfəqin təkcə əsərə deyil, həm də dövrə öz münasibətini əks etdirir. Elə buna görə də ayrıca təhlil üçün diqqəti cəlb edir.

Ədəbi tənqid əsərin keyfiyyəti haqqında fikir deməklə öz missiyasını qurtara bilməz, çünki əsərin məqsədi cəmiyyətə bu və ya digər dərəcədə təsir göstərməkdirsə, deməli ədəbi tənqid də cəmiyyət qarşısında məsuliyyət daşıyır. Cəmiyyətdəki problemlərin bir çox cəhətdən həlli yolu ədəbiyyatdan keçirsə və ədəbi tənqid də ədəbiyyatın bir sahəsidirsə, onda ədəbi tənqidin missiyası haqqında daha aydın təsəvvür yaranır.

Səksəninci illərin əvvəllərində ədəbi tənqidin gənc və istedadlı siması kimi görünən Şəfəq Məmmədovanın dövrün nüfuzlu mətbu orqanlarında işıq üzü görən məqalələri onun ədəbiyyat uğrunda mübarizəsinin mahiyyətində həm də cəmiyyət uğrunda mübarizəsi dayanırdı. O, təhlilə cəlb etdiyi hər hansı bir əsərdə "ictimai kəskinliyi", "siyasi aktuallığı" vacib keyfiyyət hesab etdiyindən əsərə məhz bu yöndən yanaşmağı üstün tuturdu.

Tofiq Əfəndiyev yetmişinci illərdə lirik psixoloji nəsr sənətkarı kimi tanınırdı. Və Şəfəq də iki-üç cümlə ilə onun haqqında yazdığı məqalədə yazıçı haqqında elə başlanğıcdaca təsəvvür yarada bilir: "Dağ yolu", "Cənub mehi", və.s. əsərlərin müəllifi kimi tanıdığımız Tofiq Əfəndiyevin yaradıcılığında "Prokuror" romanı əhəmiyyətli hadisədir. Biz bunu təsadüfi demirik. Məhz bu əsəri ilə o, öz qələminin mühüm bir cəhətini, ictimai kəskinliyini, siyasi aktuallığını nümaiş etdirməyi bacarmışdır".

Məqalənin "Azərbaycan" jurnalında dərc olmasını bir fakt kimi qəbul edərək qeyd etməliyik ki, yazının müəyyən tələblərə cavab verməsi üçün müəllif zaman və əsər, dövr və yazıçı tərəflərini diqqətdə saxlamalı idi. Görünür, mövqeyini əsaslandırmaq üçün siyasi-ideoloji dayağa ehtiyac görmüş, o dövrdə respublikanın rəhbərinin fikirlərinə istinad etməli olmuşdur. Kimsəyə sirr deyil ki, Heydər Əliyev ziyalılarla, xüsusilə, yazıçılarla həmişə ünsiyyətdə olmuş, ayrı-ayrı tədbirlərdə məruzə və çıxışlarla ictimai fikiri istiqamətləndirmişdir. Şəfəq də rəhbərin yazıçıların altıncı qurultayındakı nitqindən məramına uyğun gələn hissəni obyektivə çəkir: "Bədii söz cəmiyyətimizin antipodlarının, yaramazların qənimi olmalıdır. Yəni, cəmiyyət qurmağımıza mane olan qüvvələrə qarşı barışmaz mübarizə getdiyi zaman yazıçı hissiz və ehtirassız, laqeyd müşahidəçi kimi qala bilməz. Yazıçının vətəndaş və partiyalı münasibəti, yad təzahürlərə qarşı ideya barışmazlığı onun yaradıcılığında əks olunmalı və oxucuda kommunizmin (oxu: cəmiyyətin-Ə.X.) antipodlarına ədalətli qəzəb, dərin nifrət oyatmalıdır."

Doğru tələbdir, həqiqətən yazıçı cəmiyyətin mənəvi nizamını, insanlığın simasını qorumağa yönəlik əsər yaratmırsa... zənimcə fikirin gerisi aydındır. Həqiqətən, sonrakı dövrlərdə Azərbaycan xalqının taleyində xüsusi rolu olan Ulu Öndərin yazıçılardan istədiyi yüksək mənəvi zövq aşılamaqla bərabaər, həm də cəmiyyətin mənəvi simasını qoruyan əsərlər idi. "Biz sizdən məhz belə əsərlər - meşşanları və rüşvətxorları, pulgirləri və əşyabazları, bürokratları və yaltaqları prinsipial partiyalı mövqedən ifşa edən əsərlər gözləyirik. Biz ümid edirik ki, zəhmətkeşlərin mənəvi tərbiyəsi sahəsində respublika partiya təşkilatının apardığı mürəkkəb işdə yazıçılar öz yaradıcılığı və ictimai-siyasi fəaliyyəti ilə ön mövqelərdə dayanacaqlar".

Şəfəq də rəhbərin tələbini diqqətə çəkməklə öz oxucusuna demək istəyirdi ki, məhz Tofiq Əfəndiyev belə bir əsər yaradıb.

Şəfəqin ədəbi tənqidində özünə qədərki ədəbi tənqid xarakterindən fərqli cəhət elə onun ilk yazılarındaca görünür, diqqəti cəlb edirdi. Belə ki, çox az tənqidçilərdən fərqli olaraq o, əsər haqqında nəzəri düşüncələrini əsərin məzmunundan ayırmır. Demək olar ki, yazı boyu bu iki cəhəti paralel aparır. Yeri gəldikcə düşüncəsindən keçirdiyi ədəbi hadisənin doğurduğu əks-sədaya uyğun olaraq özü də zamana münasibət bildirməkdən çəkinmir. Kimsəyə sirr deyil ki, yetmişinci illərdə "Sovet xalqı" kəskin qıtlıqlarla üzləşə də kommunizim eyforiyasında idi. Əgər yazıçı cəmiyyətdə qarşılaşan tərəfləri kəskin təzadlarla verirdisə, heç də onun başını sığallamırdılar, amma hər halda yazıçı əsərin arxasında dayanırdı. Tənqidçi isə çılpaq həqiqətlə üz-üzə qalır və yazdığı hər bir söz üçün ittihamlara cavab verməli olurdu. Demək, hər hansı bir kəskin fikir tənqidçidən cəsarət tələb edirdi. Cəsarət üçün isə zəngin mənəvi potensial, özünə inam olmalı idi. Şəfəq cəsarətlə kommunizim eyforiyasında olan insanlara əsərin təlqin elədiyi kəskin ziddiyətləri çatdırmaqdan çəkinmirdi: "T.Əfəndiyev də "Prokuror" romanında qarşısına məhz belə sağlam bir məqsəd qoymuş, "oxucuda komunizmin antipodlarına ədalətli qəzəb, dərin nifrət oyatmağa" çalışmışdır. Əsərdə başlıca ziddiyyət məslək və əqidə etibarı ilə üz-üzə duran iki cəbhə arasındadır. Onlardan birində milis işçisi - sahə rəisi Məmmədyar Zəminzadə, digərində isə onun qızı, gənc prokuror Hekayət Zəminzadə dayanmışdır". Şəfəqin təqdim olunan cümlələrindən də göründüyü kimi o, əsərdəki hadisələri reallıq kimi qavrayır. Fikirimizi bir az da dəqiqləşdirsək deməliyik ki, o, "Prokuror" əsərində cərəyan edən hadisələri həm də öz ətrafında görürdü. Bu hadisələr mühitindən ona tanış idi. Demək, Şəfəq təkcə əsər haqqında yox, həm də mühit haqqında, dövrün mənəvi siması haqqında yazmalı olmuşdu. Özü daha sərrast deyir: "Müəllif ali məktəbi yenicə bitirmiş Hekayət kimi gənc bir hüquqşünasın bədii surətini yaratmaqla təcrübəli, riyakar, qanun keşiyində dayanan, lakin əməlləri xatirinə bu qanunları pozan Zəminzadə kimi tiplərin daxili eybəcərliyini açıb göstərir." Belinski görünür, tiplə bağlı belə məqamları nəzərdə tutaraq yazırdı ki, "tipik şəxs bir fəsilədən olan şəxslərin nümayəndəsidir, lakin xüsusi adla ifadə edilsə də bir çox predmetlərin ümumi adıdır". Tiplərin yaradılışı yazıçının realizmə əsaslanmaq gücündən çox asılıdır. "Prokuror" romanının müəllifi öz "tiplərini" yaradarkən nə qədər realist mövqedən çıxış edirsə, tənqidçidə bu tiplərə münasibətdə həmin mövqenin əqidəli tərəfdaşı kimi çıxış edir.

"Prokuror" əsərində çox kəskin qoyulan ata-övlad münasibəti də var. Doğmalar arasındakı ziddiyyət əslində cəmiyyətin inkişaf qaynağıdır. Əksliklərin vəhdəti və mübarizəsi fəlsəfi qanunauyğunluqdur. Ümumiyyətlə doğmaların qarşıdurması haqqında əsrlər traktatlar, dramlar qədim yunan - ellin mədəniyyətindən üzü bəri ictimai fikirdə özünə kifayət qədər yer tutub. Demək, sənətdəki, ədəbiyyatdakı atalar və övladlar münasibəti həyatdan təcrid deyil. Həyatdakı bu mübarizəni sənətə gətirmək və bu mübarizəyə oxucunu inandırmaq yazıçıdan istedad tələb edir və hər yazıçı doğmalar arasındakı mübarizəyə oxucusunu asanlıqla inandıra bilmir. Şəfəq bu psixoloji məqamı qabaqcadan hiss edir. Elə bu səbəbdən də doğmalar arasındakı münasibətə diqqəti yönəldərək qeyd edir ki, "müəllif bu suala birbaşa cavab vermir, hadisələrin bədii məntiqilə oxucunu belə bir həqiqətə inandırır ki, ictimai baxışlar, amal və məslək, həyat və yaşayış tərzləri toqquşan yerdə ata-övlad bağlılığı belə davamsızdır". Bu düşüncələr onu da deyir ki, Şəfəq ədəbi tənqidə bədii əsərlərin cazibəli illüziyasına uymaqla yox, nəzəri hazırlıqla gəlib. Onun düşüncə imkanları tərəflər arasındakı mübarizəni qiymətləndirməyə dəyər vermək gücündə olub. Şübhəsiz, onun nəzəri hazırlığının yazdığı əsərlərdə üzə çıxması məqalələrinin yüksək meyar tələb edən "Azərbaycan", "Ulduz" jurnallarına, "Ədəbiyyat və incəsənət" qəzetinə yol açmasına şərait yaradıb. Şəfəq nə qədər sərrast ifadə edir: "ictimai baxışlar", "amal və məslək", "həyat və yaşayış tərzləri toqquşan yerdə" ziddiyyətləri... gərək öz həqiqətinə inana biləsən. Şəfəq bir-birinə zidd ifadələri yan-yana gətirməklə həm dövrün ziddiyyətlərini yaxşı başa düşdüyünü, həm də bununla özünün düşüncə mənzərəsini göstərə bilir. Bu, onun gücü idi. Necə ki, Hekayət atasına güzəştə getmir, Şəfəq də bədii əsərin təhlilində öz prinsiplərini nə zamanın sərt üzünə, nə də yazıçının ədəbi mühitdəki mövqeyinə güzəştə getmir. əgər onun dedikləri yazıçının mövqeyi ilə üst-üstə düşürsə, onda daha ilhamla danışır, fikirlərini, rəylərini tərənnüm elədiyi ədəbi qəhrəmanın mövqeyi kimi ifadə edir. Onun ədəbi qəhrəman haqqındakı bu sözlərini özünə də şamil etmək olar: "Cəmiyyətimizin qanunları onun üçün hər şeydən müqəddəs və əzizdir. Buna görə də biz bu gənc hüquqşünasın şəxsi həyatı ilə tanış olmasaq belə, onun ictimai fəaliyyətinin bu cəhətini xüsusi təqdir edir, bəyənirik". Burada Şəfəqin bir cəhətini də müşahidə etmək olar: Gəncliyindən enerji alan ruhunun azadlığı məsələsi. Hegel deyirdi ki, "Azad ruh öz anlayışına görə subyektiv və obyektivin, forma və məzmunun tam vəhdətidir, deməli... sonsuz və əbədidir." (Hegel "Ruh fəlsəfəsi", Bakı 2003, səh.296) Əsərin ədəbi qəhrəmanı Hekayət qanunun gücünə tapındığı qədər öz ləyaqətinin də gücünə güvənir. Onun üçün ictimai mənafe hər şeydən üstündür. Əlbəttə, o, yaxşı başa düşür ki, məğlub olacağı təqdirdə heç kim onun başını sığallamayacaq, asanlıqla qanun keşikçisi mundirini əynindən çıxaracaqlar. Hekayətin nəcib insani keyfiyyətlərindən coşqun bir ehtirasla bəhs edən tənqidçi də əsərin bu məziyyətlərini elə həmin ehtiras və coşğunluqla sözə çəkir. Çalışır ki, oxucu ilə müəllif arasındakı dumanlıqları özünün aydın mövqeyi ilə dağıtsın, özünün aydın mövqeyini Hekayətin mənəvi təmizlik projektoru ilə qovuşdursun.

Kimsəyə sirr deyil ki, təsadüfən hiyləgər bir cinayətkarın toruna düşüb "İlişən" adamlar da olur. Qəddar plan doldurmaq xatirinə işləyən müstəntiqlər belələrini asanlıqla qanun qandalına sala bilir. Amma, Şəfəq Hekayətin təbiətindəki humanizmi yüksək qiymətləndirir: "Bu gənc qız sadə, təvazökar və həssasdır, adamları təmkinlə dindirir. O, qanunların quru əzbərçisi olmadığı kimi, müti icraçısı da deyildir. Hekayətin ictimai fəaliyyət dairəsi çox genişdir. Məktəblə, maarif işləri ilə, ümumiyyətlə, bütün sahələrlə maraqlanır". Burada Şəfəq Hekayəti Cəfər Cabarlının "Almaz və Sevil" qəhrəmanları ilə müqayisə edir. Doğrudur, Almazla müqayisə uyğun gəlsə də Sevillə müqayisə emosianal təsirdən irəli gəlir. Süleyman Rəhimovun "Mehman"ı ilə Hekayətin qohumluğu daha çox görünür. Yeni zamanədə yeni şəraitdə Hekayət Mehmanın mənəvi nəvəsi kimi qavranılır. Şəfəqin əsərdən gətirdiyi bir cümlə var: "Həbsxana yeganə tərbiyə vasitəsi ola bilməz". Görünür, bu hökm qanun keşikçilərini məcəllədən daha üstün ləyaqət hökmü ilə tənzimləynir və özü də mütləq burada qeyd etmək vacibdir ki, bu, dəyərini hələ uzun zamanlar boyu itirməyəcək bir hökmdür. Müstəntiq qanunun aliliyini təmin etməyə çalışarkən nə qədər əqidəli, mənəvi cəhətdən sağlam olmalıdırsa yazıçı da cəmiyyətdə bu mənəvi zəmini hazırlamaqda bir o qədər israrlı, təkidli olmalıdır. Şəfəq qanun keşikçisinin humanizmini yüksək dəyərləndirir. Onun mövqeyi sözə münasibətində üzə çıxır. Necə ki, qanun keşikçisinin mövqeyi, xüsusilə, mənəvi siması qanun pozuntusuna münasibətində görünür.

Burada bir məqama da münasibət bildirməyimiz yerinə düşərdi. Şəfəq əsərin qəhrəmanının humanizmini təqdir etmək üçün məktəb bufetindən oğurluq edən uşaqların əməlini yerli-yataqlı təsvir edir, yəni təfərrüata varır. Bu da görünür dövrün ədəbi tənqidinin təsirindən irəli gəir. Çünki, yetmişinci illərin ədəbi tənqidində belə təfərrüatlar əsas məziyyətlərdən idi. Ancaq, Şəfəqin təfərrüatında da bir özünəməxsusluq var. Hadisələri çözdükcə vəcdə gəlir və bu zaman onun ədəbi tənqidi düşüncələri bədii xarakter alır. İnsan və cəmiyyət haqqında ruhsal düşüncələri ilə oxucusunu cazibəsinə çəkir. Və nəticədə sanki oxucu yeni bir bədii əsər oxuyur. İnsanları qəddarlığa sürükləyən mənəvi mühitin eybəcərliyini təsirli lövhələrlə diqqətə çəkmək yazının oxunaqlılığını bir qədər də artırır.

Məqalənin müəllifi yeri gəldikcə ritorik suallar qoyur: "Bəs bu pullar hardandır" bu gün bu sual yenə də aktualdır. Korrupsiyalaşmış, talançılıqla məşğul olmuş məmurlar bir-birinin ardınca ifşa olunur. Cəmiyyətin hüququ nizamını qorumalı olan məmur az qala qəddar və mənfi obraz kimi təsəvvür edilməkdədir. Doğrudur, belələri ifşa olunur, haqlı cəzalarına çatırlar. Bəs onları hansı mühit yaradır. Tənqidçi öz məqaləsində bu məqamlara diqqət yetirir və şübhəsiz, təsirin bir tərəfini də proseslərə seyrci mövqe tutan insanlar da, mühit də görür. Bir-birinin arxasınca qorxulu serialları xatırladan məhkəmə prosesləri "Bəs pullar haradandır" sualına cavab axtarmaqdadır. Şəfəq həmin sualı hələ yetmişinci illərdə cəmiyyətə ünvanlamaqda haqlı idi.

Şəfəq Məmmədova ədəbi tənqidi görüşlərində həm də mübariz bir publisist kimi çıxış edir. Cəmiyyəti içəridən yeyib-sökən viruslara qarşı güzəştsiz mövqe tutur. Kəskin sosial problemləri qaldırmaqdan çəkinmir.

*(Davamı var)*